

Fəzail İsmayıl
BÖYÜKKİŞİ

## Sevda çiçəklədi könül bağımda

Mən Oğuz Türküyəm yerim, göyüm var,
Mən Bilgəyəm köküm üstə duranam.
Mən xaqan, mən sultan, paşam, bəyim var,
Mən həm Azərbaycan, mən həm Turanam!

Mən cümlə hümməti sirdaşı seçən,
Tanrı qibləsinə yüksələn türkəm!!!
Sıldırım qayalar, uçrumlar keçən,
Türklük zirvəsinə yüksələn türkəm!!!

Türklüyüm hiyləyə, fitnəyə qənim,
Tayfaya, mafyaya yer yoxdur onda.
Ən gözəl dünyamdır türk dünyam mənim,
Bir kimsədən gizlin sirr yoxdur onda.

Türk dünyamda dönük bir yar da yoxdur,
Allahın eşqidir hamıya əyan.
Zalım yox, məzlum yox, kor, kar da yoxdur,
Nə bərk qışqıran var, nə pıçıldayan.

Türk dünyamda insan insan doğması,
Türk dünyamda haqq Tanrıdı, Mövladı.

Türk dünyamın halallıqdır loxması,
Türk dünyamda hamı Adəm övladı.

Türk dünyamın türk övladı qürurlu,
Tanrıya qul olan mərd türk məndədir.
Türk qəlbi dupduru, türk könlü nurlu,
Türkdə gözəl əməl, sözdən öndədir.

Zəngindən zəngindir türkün biliyi,
Elmindən həlmişə əngindən əngin.
Sən türkü sayma gəl şəxs əvəzilyi,
Yalnız aşiqidir türk bəyaz rəngin.

Türk gözəl mənalar daşıyır düzdür.
Türkü xorlayanlar dayazdır, dayaz,
Bəyaz türk sevdiyi ən nəcib sözdür!!!
Türk ruhu, siması bəyazdır, bəyaz!!!

Bəyaz türkün təmiz qanı, canıdır!!!
Bəyaz türkün namus, qeyrət, ardır!!!
Bəyaz gözəlliyin tərcümanıdır!!!
Bəyaz insanlığın çalarlarıdır!!!

Nə rəng varsa da pərdə-pərdədir.
Bir-birini tez-tez ötüb keçəndir.
Haqqın dərgahı da bəyaz rəngdədir,
Bəyaz Tanrı sevib, Tanrı seçəndir.

Tanrının yolunun bəyazdır uğru,
Haqqın dərgahının bəyazdir naxşı -
Ey Tanrım sen bəyaz türkümü qoru,
Dönüb bəyazlaşsın bəşərin baxşı.

Məni gözəl duysun öz Türk millətim,
Könlünə nur yaysın, qəlbinə sevgi.
Onu gəlib xoşbəxt eləməz heç kim,
O yadı doğmadan ayırsın təki.

Mənim sevdalıdır könlüm binadan,
Saflıq, gözəllikdir yaşadan məni.
Yarandım sevdalı ata-anadan,
İnsanlıq sevəcək başadan məni.

Ağacı yaşadar əmici teller,
İnsanlıq, gözəllik otellərimdir.
Məni yenə bilmez fitnələr, feller,
Məni də yaşadan Türk ellərimdir.

Türk verməz kiməsə əzab, iztirab,
Mərhəmətdir, fəzilətdir hünərim.
Türk nəcib, xeyirxah, türk alicənab,
İbrahim, İsmayıl Türk peyğəmbərim.

Xırda hisslər qata bilməz başımı,
Havadan asılı qalmaz əlim də
İtirmərəm ağılım, hüşumu,
Tək Tanrıma şükürlər var dilimdə.
Bu dünyadan niyə olsun gileyim,

Şöhrətə, sərvətə divanə olsa,
O bir insan kimi çıxar sıradan.
Bəllidir insanın Adəmdir zatı,
Adəmə xor baxan iblisə dönər.

Yalanın, haramın var sonsuz qatı,
İnsan ona uysa şər-xeyri yenər.
Mən ol dedim, naşı kəslər duymadı,
Mənim olum Günəşin Yer közüdür.

Məndə mənim şan-şöhrətə uymadı,
Məndə mənim insanlığın özüdür.
Mən elə mərdəm ki, yox məndən anrı,
Məndəki mərdliyi anan olarmı?

Göydəki Günəşi yandırar Tanrı,
Qəlbim Günəşi tək yanan olarmı?
Yaranandan Tanrıdan nur əmirəm,
Dan sökülmür, xoruzlar da banlamır.

Yadlar yaddır, yadları heç demirəm,
Daha məni dost-doğmam da anlamır.
Sözlərin sayıldı əfsanə, nəğıl,
Hoyuma nə bacı, nə oğul yetdi...

Atama, Anama oldum tək oğul,
Mənimki Atamla, Anamla getdi.
İnsanlıq uçrumdan yuvarlanarsa,
Bu bir fəlakətdir, bir müsibətdir.

Bunu görüb Bəni-Adəm danarsa, –
Busa Qiyamətdir, son nəhayətdir,
Mən Tanrı eşqimdə vəfalı qaldım,
Körpə uşaq, cavan, ahıl çağımda,
Sevdalı-sevdalı xəyala daldım,
Sevda çiçəklədi könül bağımda!!!
Sevda çiçəklədi könül bağımda!!!